

AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Avqust 2019

iqtisadiislahat.org
info@ereforms.org

AZEXPORT.AZ
**Made in Azerbaijan**

# "AZƏRBAYCAN İNNOVASİYALAR, MÜASİR İDARƏETMƏ, LİBERAL İQTİSADİYYAT YOLU İLƏ İNKİŞAF ETMƏLİDİR"

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2019-cu il 31 iyul tarixində sosial-iqtisadi sahə ilə bağlı
müşavirədəki nitqindən



"Azərbaycan innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf etməlidir. Yəni, bütün lazımi tədbirlər görülüb. Təsadüfi deyil ki, bunu beynəlxalq maliyyə qurumları qeyd edir. Biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər bunu göstərir ki, bu gün iqtisadi sahədə Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasındadır.

Bununla paralel olaraq, biz sosial sahəyə də çox böyük diqqət göstəririk. Bu il reallaşan layihələr - milyardlarla dollar həcmində ölçülən bu layihələr, bu təşəbbüslər bizim niyyətimizi, bizim siyasətimizi göstərir. Göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bizim iqtisadi gücümüz sosial sahəyə bilavasitə təsir etməlidir və edir. Biz bundan sonra da bu yolla gedəcəyik. Əminəm ki, ilin sonuna qədər nəzərdə tutulan bütün vəzifələr icra ediləcəkdir".

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 11

2019-cu ilin yanvar-iyul aylarında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 725,4 milyon manatlıq əməliyyat aparmışlar ____ səh. 15

2019-cu ilin yanvar-iyul aylarında Azexport.az portalına 346,6 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 17

Cari ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 91,7 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ____ səh. 21

Sahibkarlara dövlət büdcəsindən ixrac təşviqinin ödənilməsi davam edir ____ səh. 24

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2019-cu ilin **YANVAR-İYUL AYLARINDA** qeyri-neft sektoru üzrə **1 milyard 133 milyon** ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **164 milyon** ABŞ dolları və ya **17%** artmışdır

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2019-cu ilin yanvar-iyul ayları ərzində ölkəmizin ixracı **12,3 milyard** ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq dövrünə nisbətən **1,5 milyard** ABŞ dolları və ya **14 faiz** artmışdır. Bu müddətdə qeyri-neft sektoru üzrə **1 milyard 133 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılmışdır. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 7 ayında qeyri-neft sektoru üzrə ixrac **164 milyon** ABŞ dolları və ya **17 faiz** artmışdır. Cari ilin yanvar-iyul ayları ərzində Rusiyaya **395,9 milyon**, Türkiyəyə **251,2 milyon**, Gürcüstana **100,4 milyon**, İsveçrəyə **88,3 milyon** və İtaliyaya **32,4 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 7 ayında Rusiyaya qeyri-neft ixracı **12 faiz**, Türkiyəyə **17 faiz**, Gürcüstana **23 faiz**, İsveçrəyə **13 faiz** və İtaliyaya **2,4 dəfə** artmışdır. Eyni zamanda qeyri-neft sektoru üzrə ixracın dəyərində Rusiyaya (34,9 faiz), Türkiyəyə (22,2 faiz), Gürcüstana (8,9 faiz), İsveçrəyə (7,8 faiz) və İtaliyaya (2,9 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

2019-cu ilin yanvar-iyul ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında isə **pomidor** (141,2 milyon ABŞ dolları) liderliyini qorumuşdur. Bu siyahıda **qızıl** (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 85 milyon ABŞ dolları) ikinci və **pambıq mahlıcı** (82,2 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşmışdır.

Bunlarla yanaşı, təhlil edilən müddətdə qabığı təmizlənmiş meşə fındığı, elektrik enerjisi, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, albalı və gilas, ilkin formalı polipropilen, metanol (metil spirti), emal olunmamış aşqarlanmamış alüminium da qeyri-neft ixracında mühüm paya sahib olmuşdur.

Ümumiyyətlə, 2019-cu ilin 7 ayı ərzində meyvə-tərəvəz ixracı **345,3 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **119,4 milyon**, pambıq lifi ixracı **83 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **62,8 milyon**, kimya sənayesi məhsullarının ixracı **57,2 milyon**, elektrik enerjisinin ixracı **56,5 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **37,6 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **17,4 milyon**, pambıq ipliyi ixracı **17,3 milyon**, şəkər ixracı **16,5 milyon** ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyul aylarında alkoqollu və alkoqolsuz içkilərin ixracı **2,1 dəfə**, pambıq lifinin ixracı **83,6 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **50,6 faiz**, kimya sənayesi məhsullarının ixracı **40,9 faiz**, pambıq ipliyinin ixracı **39,5 faiz**, meyvə-tərəvəzin ixracı **14,6 faiz**, şəkər ixracı **10,7 faiz** artmışdır.

2019-cu ilin iyul ayında isə qeyri-neft sektoru üzrə ixrac **154 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin iyul ayı ilə müqayisədə 2019-cu ilin iyul ayında qeyri-neft sektoru üzrə ixrac **32 milyon** ABŞ dolları və ya **26 faiz** artmışdır. Cari ilin iyul ayında qeyri neft-qaz məhsulları üzrə ən çox mal Rusiyaya (41 milyon ABŞ dolları), Türkiyəyə (37,9 milyon ABŞ dolları), İsveçrəyə (14,8 milyon ABŞ dolları), Gürcüstana (14,7 milyon ABŞ dolları) və Yunanıstana (6,1 milyon ABŞ dolları) ixrac edilmişdir.

2019-cu ilin iyul ayında qeyri-neft sektoru üzrə ixracda **qızıl** (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 14,7 milyon ABŞ dolları) birinci, **albalı və gilas** (12,5 milyon ABŞ dolları) ikinci, emal olunmamış **aşqarlanmamış alüminium** (7,5 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Həmçinin cari ilin iyul ayında pambıq mahlıcı, metanol (metil spirti), ilkin formalı polipropilen, ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, emal olunmamış alüminium ərintiləri qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

2019-cu ilin 7 ayında ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2019-CU İLİN **YANVAR-İYUL AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI AVQUST



# 2019-CU İLİN **İYUL AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI AVQUST



# 2019-CU İLİN **YANVAR-İYUL AYLARINDA** 2018-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**



# 2019-CU İLİN **YANVAR-İYUL AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI AVQUST

| Mal | 2019 | 2018 |
|---|---|---|
| Tomat | 141,2 | 144,1 |
| Qızıl | 85 | 68,5 |
| Mahlıc | 82,2 | 44,7 |
| Fındıq ləpəsi | 71,3 | 37,2 |
| Elektrik enerjisi | 56,5 | 56,9 |
| İlkin formalı polietilen | 47,1 | 57,3 |
| Albalı və gilas | 42,2 | 38 |
| İlkin formalı polipropilen | 41,8 | 0,5 |
| Metanol (metil spirti) | 38,5 | 13,1 |
| Digər | 527,2 | 508,3 |

# 2019-CU İLİN **İYUL AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI AVQUST

| Mal | 2019 | 2018 |
|---|---|---|
| Qızıl  | 14,7 | 7,8 |
| Albalı və gilas  | 12,5 | 11,2 |
| Emal olunmamış aşqarlanmamış alüminium  | 7,5 | 3,4 |
| Pambıq mahlıcı  | 7,3 | 16,4 |
| Metanol (metil spirti)  | 7,2 | 6,6 |
| İlkin formalı polipropilen  | 5,6 | 0 |
| Şəkər  | 5,3 | 2,5 |
| İlkin formalı polietilen  | 5,2 | 7 |
| Emal olunmamış alüminium ərintiləri  | 4,2 | 1,3 |
| Digər  | 78,6 | 65,8 |

# 2018-Cİ İLİN Və 2019-CU İLİN **YANVAR-İYUL AYLARINDA** ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI AVQUST

## 2018

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Qızıl | 17,2 |
| Fevral | Elektrik enerjisi | 17,7 |
| Mart | Elektrik enerjisi | 13,6 |
| Aprel | Pomidor | 18,5 |
| May | Pomidor | 54,3 |
| İyun | Pomidor | 43,2 |
| İyul | Pambıq mahlıcı | 16,4 |

## 2019

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerjisi | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Pomidor | 24,2 |
| May | Pomidor | 54,6 |
| İyun | Pomidor | 33,8 |
| İyul | Qızıl | 14,7 |

# 2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2019-cu ilin **YANVAR-İYUL AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2019-cu ilin yanvar-iyul ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

Cari ilin yanvar-iyul ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "Socar Polymer" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "MKT İstehsalat Kommersiya" MMC, "Nine Climate" MMC, "Global Export Fruits" MMC, "Caspian enerji-2020" MMC, "Baku Steel Company", "Sun Food" MMC, "P-Aqro" MMC, " Azərbaycan Şəkər İstehsalat Birliyi " MMC.

Göründüyü kimi 2019-cu ilin əvvəlində ixracatçı şirkətlərin sırasına qatılan "Socar Polymer" MMC cari ilin iyul ayında liderliyə yüksəlmişdir.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərenerji" ATSC, "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "CTS-Agro" MMC, "Azərikimya" İB, "Azərtütün Aqrar Sənaye Kompleksi" MMC, Dövlət Material Ehtiyatlari Agentliyi.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2019-CU İLİN **YANVAR-İYUL AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2018-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2019-CU İLİN **YANVAR-İYUL AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI AVQUST



# 2019-CU İLİN YANVAR-İYUL AYLARINDA "AZƏRKOSMOS" ASC 25,5 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2019 İXRAC İCMALI AVQUST



2019-cu ilin yanvar-iyul aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **22 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **89 faizini** təşkil etmişdir.

2019-cu ilin iyul ayında isə "Azərkosmos" ASC dünyanın 21 ölkəsinə **6,9 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.

2019-cu ilin yanvar-iyul aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**




| Ölkə | Məbləğ |
|---|---|
| ABŞ | 9 milyon $ |
| Fransa | 6 milyon $ |
| Malayziya | 4,2 milyon $ |
| Birləşmiş Krallıq | 3,7 milyon $ |
| BƏƏ | 838 min $ |



## 2019-cu ilin **YANVAR-İYUL AYLARINDA** Azərbaycana gələn xaricilər **BANK KARTLARI VASİTƏSİ İLƏ** 725,4 **milyon** manatlıq əməliyyat aparmışlar

## **ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə **CARİ İLİN** birinci yarısında ölkəmizə 7,4 **faiz** çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir

2019-cu ilin yanvar-iyul aylarında Azərbaycana dünyanın 187 ölkəsindən 1777,4 min və ya 2018-ci ilin yanvar-iyul ayları ilə müqayisədə 7,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 30,6 faizi Rusiya Federasiyası, 22,8 faizi Gürcüstan, 9,9 faizi Türkiyə, 7,2 faizi İran, 3,6 faizi Səudiyyə Ərəbistanı, 2,3 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla Ukrayna və Hindistan, hər birindən 1,5 faiz olmaqla Türkmənistan və İraq, hər birindən 1,4 faiz olmaqla Qazaxıstan, İsrail və Pakistan, 1,3 faizi Böyük Britaniya, 11,2 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Ölkəmizə yanvar-iyul aylarında gələnlərin sayında daha çox artım Misir (83,2 faiz), Hindistan (80,6 faiz), Türkmənistan (78,5 faiz), Çin (74,3 faiz), Səudiyyə Ərəbistanı (48,8 faiz), Macarıstan (48,1 faiz), Böyük Britaniya (30,9 faiz), Cənubi Koreya (30,9 faiz), Yaponiya (29,3 faiz), Polşa (27,7 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

Cari ilin iyul ayında ölkəmizə gələn xarici vətəndaşların sayının **10,6 faiz** artmasına paralel olaraq onların bank kartları vasitəsi ilə xərcləmələrində də artım müşahidə edilmişdir. Belə ki, 2019-cu ilin iyul ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların həcmi **134,6 milyon** manat təşkil etmiş və ötən ilin iyul ayı ilə müqayisədə **7 faiz** artmışdır. Ümumilikdə isə 2019-cu ilin yanvar-iyul ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **725,4 milyon** manat təşkil etmişdir.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

## 2017

Yanvar - **86,8**
Fevral - **72,5**
Mart - **91,1**
Aprel - **80,6**
May - **92,6**
İyun - **83,8**
İyul - **95,7**

**Cəmi - 603,1**

## 2018

Yanvar - **99,8**
Fevral - **91,1**
Mart - **105,8**
Aprel -**109,7**
May -**107,3**
İyun - **106,7**
İyul - **126,3**

**Cəmi - 746,7**

## 2019

Yanvar - **88,3**
Fevral - **85,3**
Mart - **98**
Aprel - **103,2**
May -**100,9**
İyun - **115,1**
İyul - **134,6**

**Cəmi - 725,4**

# 3

## 2019-CU İLİN YANVAR-İYUL AYLARINDA AZEXPORT.AZ PORTALINA 346,6 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

**ÖTƏN İLİN MÜVAFİQ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ** portala daxil olan **ixrac sifarişləri dəyər** baxımından **10 faiz ARTMIŞDIR**

2019-cu ilin yanvar-iyul aylarında Azexport.az portalına **346,6 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyul aylarında ixrac sifarişləri **10 faiz** artmışdır. 2019-cu ilin iyul ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **43,5 milyon** ABŞ dolları təşkil etmiş və ötən ilin iyul ayı ilə müqayisədə **40 faizlik** artım qeydə alınmışdır. 2019-cu ilin yanvar-iyul aylarında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya(12,1%), Türkiyə (6,4%), ABŞ (6%), Hindistan (5,7%) və İngiltərə (4,8%) qərarlaşmışdır.

Cari ilin iyul ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq, pomidor, fındıq ləpəsi, alma, tütün, toyuq yumurtası, şərab, qənnadı məhsulu, kosmetik vasitə, çay, tikinti materialı, mühərrik yağı, bal, boya, meyvə kompotu, nar məhsulları, yun, mebel dəsti, mineral su və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 31 iyul tarixinə kimi (31 ay ərzində) Azexport.az portalına dünyanın 133 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **1 335,7 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# **AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(ABŞ dolları ilə)**




Yanvar - **91,7 milyon**
Fevral - **53,9 milyon**
Mart - **32,8 milyon**
Aprel - **50,9 milyon**
May - **32,5 milyon**
İyun - **41,3 milyon**
İyul - **43,5 milyon**

2017-ci il ərzində
**CƏMİ - 475 milyon**

2018-ci il üzrə
**CƏMİ - 514,1 milyon**

2019-cu il
**CƏMİ - 346,6 milyon**



Son **31 ay** ərzindəki sifarişlərin cəmi - **1 335,7 milyon**

# 2019-CU İLİN **İYUL AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

Pambıq və pambıq məhsulları



Pomidor (Tomat)



Fındıq ləpəsi



Alma



Tütün



Toyuq yumurtası



Şərab



Qənnadı məhsulu



Kosmetik vasitə



Çay



Tikinti materialı




Mühərrik yağı



Bal



Boya



Meyvə kompotu



# 2019-CU İLİN **YANVAR-İYUL AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ



5

# CARİ İLDƏ “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 91,7 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

2019-cu ilin avqust ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi tərəfindən fiziki və hüquqi şəxslərə ixracla bağlı müvafiq sertifikatların verilməsi prosesi davam etmişdir. Qeyd edək ki, “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin xidmətlərindən "AzerGold" QSC, "Baku Steel Company" MMC, "Atena" MMC, "Agro Export Azerbaijan" MMC, "Xəzərbalıq" MMC, "Gilan Tekstil Park" MMC, "Fors" MMC, "Vital Food Export" MMC kimi şirkətlərlə yanaşı, fiziki şəxslərdə istifadə etmişdirlər. Nəticədə cari ilin avqust ayı ərzində Mərkəz vasitəsi ilə verilən ixrac sənədlərinə əsasən **11,6 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Ümumilikdə isə 2019-cu ilin yanvar-avqust aylarında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən **91,7 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir.

Cari ilin avqust ayı ərzində ixracatçılara əsasən üzüm, tütün, sarımsaq, ağ gilas və əncir mürəbbələri, biyan balı, biyan kökü, qiymətli metal külçələr, polad armatur yayması, elektron aparat və avadanlıqların tullantısı, polad armatur yayması, polad boru, süd məhsulları (pendir), pambıq iplik tullantısı, ayaqqabı altlığı, meyvə şirəsi, kolbasa və sosiska, fındıq ləpəsi, at, balıq yemi, dondurulmuş kilkə və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Rusiya, Gürcüstan, Türkiyə, İran, Ukrayna, Səudiyyə Ərəbistanı, İsveçrə, Belarus, Çin, Yaponiya, Vyetnam, Malayziya daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

Məlumat üçün bildirək ki, 2018-ci ildə “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **150 milyon** ABŞ dolları olmuşdur.



# 2019-CU İLİN YANVAR - AVQUST AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)



# 2019-CU İLİN **AVQUST AYINDA "BİR PƏNCƏRƏ"** İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**





# 6

# SAHİBKARLARA DÖVLƏT BÜDCƏSİNDƏN İXRAC TƏŞVİQİNİN ÖDƏNİLMƏSİ DAVAM EDİR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 6 oktyabr tarixli 401 nömrəli qərarı ilə "Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası", "İxrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı" və "Məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə tətbiq olunacaq Əmsallar" təsdiq olunduqdan sonra ölkəmizdə ixrac təşviqinin verilməsinə başlanılmışdır. 2019-cu ilin ötən dövrü ərzində 5 milyon manatdan çox ixrac təşviqi ödənilmişdir. Ümumilikdə isə bu günə kimi qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə sahibkarlara dövlət büdcəsindən 13 milyon manatdan çox ixrac təşviqi ödənilmişdir və bu proses davam edir.

Qeyd edək ki, ixrac təşviqi Azərbaycan Respublikası mənşəli mallara şamil olunur və ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 faizini təşkil edir.

İxrac təşviqi şamil olunan qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə siyahısı və məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə tətbiq olunacaq əmsallar barədə daha ətraflı məlumat aşağıdakı cədvəllərdə verilmişdir.

**GÖMRÜK DƏYƏRİNİN 3 FAİZİ QƏDƏR İXRAC TƏŞVİQİ ÖDƏNİLƏN QEYRİ-NEFT MƏHSULLARININ SİYAHISI**

| XİFMN üzrə məhsulun kodu | Malın adı | Əmsal |
|---|---|---|
| 0802 22 | Qabığı təmizlənmiş meşə fındığı | 1 |
| 0810 70 000 0 | Xurma | 1 |
| 0810 90 7501 | Nar | 1 |

## GÖMRÜK DƏYƏRİNİN 4,5 FAİZİ QƏDƏR İXRAC TƏŞVİQİ ÖDƏNİLƏN QEYRİ-NEFT MƏHSULLARININ SİYAHISI

| XİFMN üzrə məhsulun kodu kodu | Malın adı | Əmsal |
|---|---|---|
| 0407 | Quş yumurtası | 1,5 |
| 0409 00 000 0 | Təbii bal | 1,5 |
| 0804 20 900 0, 0806 20, 0813-dən | Qurudulmuş meyvələr | 1,5 |
| 1509 90 | Digər zeytun yağı və onun fraksiyaları | 1,5 |
| 1905-dən | Unlu qənnadı məmulatları, o cümlədən paxlava, şəkərbura kimi şərq şirniyyatları | 1,5 |
| 2001-dən | Sirkə və ya sirkə turşusu ilə konservləşdirilmiş tərəvəz, meyvə, qoz-fındıq | 1,5 |
| 2006 00-dan | Şəkər vasitəsilə konservləşdirilmiş tərəvəz, meyvə, qoz-fındıq | 1,5 |
| 2201-dən | Təbii və ya süni mineral sular, qazlı sular | 1,5 |
| 2202 | Alkoqolsuz içkilər | 1,5 |
| 5007 | İpək parçalar | 1,5 |

## GÖMRÜK DƏYƏRİNİN 6 FAİZİ QƏDƏR İXRAC TƏŞVİQİ ÖDƏNİLƏN QEYRİ-NEFT MƏHSULLARIN SİYAHI

| XİFMN üzrə məhsulun kodu kodu | Malın adı | Əmsal |
|---|---|---|
| 2002 | Sirkəsiz və ya sirkə turşusuz hazırlanmış və ya konservləşdirilmiş pomidor | 2 |
| 2005 | Sirkəsiz və ya sirkə turşusuz hazırlanmış və ya konservləşdirilmiş, dondurulmamış digər tərəvəzlər | 2 |
| 2007 | Cemlər, mürəbbələr, meyvə jelesi, marmeladlar, meyvə və ya qoz-fındıq püresi, meyvə və ya qoz-fındıq pastası | 2 |
| 2008-dən | Başqa üsulla hazırlanmış və ya konservləşdirilmiş meyvələr və qoz-fındıq, o cümlədən qablaşdırılmış qoz, fındıq və badam | 2 |
| 2009 | Meyvə və tərəvəz şirələri, o cümlədən nar şirəsi | 2 |
| 2103-dən | Souslar və ədviyyatlar | 2 |
| 2204 | Təbii üzüm şərabları və üzüm suslosu | 2 |
| 2205 | Vermutlar və bitki və ya aromatik ekstraktların əlavəsi ilə digər təbii üzüm şərabları | 2 |
| 2206 | Üzüm şərabları istisna olmaqla, digər meyvə çaxırları, o cümlədən nar çaxırı | 2 |
| 2208 | Konyak, brendi, likörlər və digər spirtli içkilər, üzüm şərablarının distillatları | 1,5 |
| 3004900000-dan | Naftalan mazı | 2 |
| Qrup 42-dən | Təbii dəridən geyim əşyaları və digər məmulatlar | 2 |
| 5701-dən | Əllə toxunmuş xovlu xalçalar | 2 |
| 5702-dən | Əllə toxunmuş xovsuz xalçalar | 2 |
| Qrup 61-dən<br>Qrup 62-dən<br>Qrup 63-dən | Pambıq ipliyindən geyim əşyaları, ləvazimatları və digər hazır toxuculuq məmulatları | 2,0 |
| 6403 | Üstü təbii dəridən olan ayaqqabılar | 2,0 |

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

